Azərbaycan dili və ədəbiyyat tədrisi
2026 / Cild 72, Nömrə 3 / 88–95
https://doi.org/10.48445/z5746-8431-0365-l

Azərbaycan aşıq poeziyasının dilində sinonimlik keyfiyyəti

Fəxriyyə Cəfərova [1]

XÜLASƏ

Azərbaycan xalqının mədəni irsinin ayrılmaz hissəsi olan aşıq poeziyası çox zəngin, poetik və üslubi xüsusiyyətləri ilə seçilir. Bu poeziyanın dilində sinonimlər estetik, semantik və funksional əhəmiyyətə malikdir. Aşıq poeziyası hələ Qədim zamanlardan bəri sinonimlik vasitəsilə özünü göstərən zəngin semantik qatlara malik olmuşdur. Aşıqların dilində sinonimlik məna incəliklərini ifadə etmək, estetik cəlbediciliyi təmin etmək və mədəni kimliyi əks etdirmək baxımından mühüm əhəmiyyətə malikdir. Məqalədə aşıq poeziyasının sinonim keyfiyyətləri araşdırılır, sinonimliyin linqvistik, semantik, üslubi və mədəni aspektləri nəzərdən keçirilir. Sinonimlərin mətndə ritm, təkrar, parralelizm, mədəni simvolika və asan yadda saxlama kimi funksiyalarda rolu açıqlanır, o cümlədən Azərbaycan xalqının mənəvi dəyərlərinin ifadəsindəki əhəmiyyəti nümunələrlə göstərilir.

AÇAR SÖZLƏR

aşıq poeziyası, poetik dil, mədəni simvolika, semantik zənginlik, üslub xüsusiyyətləri

MƏQALƏ TARİXÇƏSİ

Göndərilib: 27.05.2026
Qəbul edilib: 04.08.2026

[1]Filologiya üzrə fəlsəfə doktoru, dosent, Naxçıvan Dövlət Universiteti. Azərbaycan
https://orcid.org/0000-0001-2345-6789 | fakhriyyacafarova@nmi.edu.az

 Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Teaching of Azerbaijani Language and Literature
2026 / Volume 72, Number 3 / 88–95
https://doi.org/10.48445/z5746-8431-0365-l

The Quality of Synonymy in the Language of Azerbaijani Ashug Poetry

Fakhriyya Jafarova [1]

ABSTRACT
Azerbaijani ashug poetry constitutes an integral part of the nation's cultural heritage, and its language is distinguished by richness, poetic expressiveness, and stylistic diversity. Within this poetic tradition, synonyms possess significant aesthetic, semantic, and functional value. From ancient times to the present, ashug poetry has been characterized by multilayered semantic structures, frequently manifested through synonymy. In the language of ashugs, synonymy plays a crucial role in conveying subtle shades of meaning, ensuring aesthetic appeal, and reflecting cultural identity. This article examines the qualities of synonymy in ashug poetry, with particular attention to its linguistic, semantic, stylistic, and cultural aspects. The study highlights the role of synonyms in the realization of rhythm, repetition, parallelism, cultural symbolism, and ease of memorization within the poetic text. In addition, the article illustrates, through examples, the role of synonymy in expressing the spiritual and moral values of the Azerbaijani people.

KEYWORDS
ashug poetry, poetic language, cultural symbolism, semantic richness, stylistic features

ARTICLE HISTORY
Received: 27.05.2026
Accepted: 04.08.2026

[1]Doctor of Philosophy in Philology, Associate Professor, Nakhchivan State University. Azerbaijan
https://orcid.org/0000-0001-2345-6789 | fakhriyyacafarova@nmi.edu.az

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Giriş

Aşıq poeziyası folklorun canlı arxivi kimi mədəni dəyərləri, inancları və tarixi təcrübələri özündə əks etdirir. Onun dili ritm, paralelizm, obrazlılıq və leksik yaradıcılıq kimi xüsusi cəhətlərlə səciyyələnir. Bu xüsusiyyətlərdən biri də sinonimlikdir. Aşıq dilində sinonimlik yalnız lingvistik fenomen deyil, eyni zamanda funksional və üslubi vasitə kimi mətnin mənasını gücləndirir, aydınlığını artırır və estetik təsir yaradır. Azərbaycan aşıq poeziyası xalqın milli yaddaşını və mədəni dəyərlərini qoruyan ənənəvi poeziya növüdür. Bu poeziyanın dilində sinonimlərin rolu çoxşaxəlidir:

1.Sinonimlər ritm, qafiyə, paralelizm yaradaraq estetik funksiyanı yerinə yetirir.

2.Sözlər arasında təkrarların qarşısını alan sinonimik əlaqələr mövzunun daha aydın çatdırılmasında və mənanın gücləndirilməsində əhəmiyyətli rol oynayır.

3.Aşıq poeziyasında sinonimlər ritm sayəsində mətni asanlıqla yadda saxlamağı təmin edir.

4.Cəmiyyət hadisələri, təbiət obrazları sinonimlər vasitəsilə xalqın dünyagörüşünü əks etdirərək mədəni dəyərlərimizi qoruyur.

Bu cəhətlərinə görə aşıq poeziyasının dilində sinonimlik keyfiyyətinin araşdırılması aktual məsələlərdən biridir.

Metodlar

Tədqiqatda Azərbaycan aşıq poeziyasının dilində sinonimlik keyfiyyətinin öyrənilməsi məqsədilə kompleks və çoxmetodlu yanaşma tətbiq edilmişdir. Araşdırmanın metodoloji bazasını müasir dilçilik nəzəriyyələri və poetik dilçilik prinsipləri təşkil edir. Aşıq poeziyasında işlədilən sinonim leksik vahidlərin müəyyən edilməsi onların semantik xüsusiyyətləri, kontekst daxilində funksional yüklərinin və poetik ifadə imkanlarının araşdırılması məqsədilə təsviri-analitik metoddan istifadə edilmişdir. Sinonimlərin emosional-ekspressiv və məna çalarlarının fərqləndirilməsi məqsədilə semantik təhlil, onların poetik üslubun formalaşmasında rolunu müəyyən etmək üçün isə üslubi təhlil metodları tətbiq olunmuşdur.

Nəticələr

Aparılan tədqiqat göstərir ki, Azərbaycan aşıq poeziyasında sinonimlik yalnız leksik zənginlik vasitəsi deyil, o eyni zamanda poetik ifadənin, ritmin və estetik təsirin gücləndirilməsində mühüm rol oynayır. Analiz edilən nümunələrdən aydın olur ki:

1. Sinonimlər poeziyada eyni və ya yaxın mənalı sözləri fərqli kontekstlərdə təqdim etməyə imkan verir, beləliklə, aşıq şeirinin məna qatları dərinləşir və oxucuya daha geniş interpretasiya imkanları yaranır.

2. Sinonimlərdən obrazlılıq və emosional rəngarənglik yaratmaq məqsədilə istifadə olunur. Onlar şeirə melodik ritm verir, sözlərin təkrarlanmasının qarşısını alır və hər misrada fərqli lirik ton yaratmağa şərait yaradır.

3. Aşıq poeziyasında sinonimlər ritmik və qafiyəli quruluşu gücləndirərək oxucunun diqqətini müəyyən obrazlara və hisslərə yönəldir.

4. Aşıq dilində sinonimlər mədəni və tarixi əhəmiyyətə malikdir. Sinonimlərin seçimi və istifadəsi xalqın dil mədəniyyətini və tarixi-mədəni ənənələrini əks etdirir. Belə ki, köhnəlmiş və ya nadir sinonimlərdən istifadə poeziyanın həm tarixi dərinliyini, həm də folklor estetikasını ortaya qoyur.

Ümumilikdə, tədqiqat göstərir ki, Azərbaycan aşıq poeziyasında sinonimlik sözün mənasını zənginləşdirən, poetik ifadəni gücləndirən və mədəni dəyərləri qoruyan əsas dil xüsusiyyətlərindən biridir. Bu nəticələr həm poetik dilçilik, həm də folklorşünaslıq sahəsində əlavə analiz və müqayisəli araşdırmalar üçün geniş elmi baza yaradır.

Müzakirə

Azərbaycan dilinin semantik kateqoriyalarından biri sinonimlərdir. Dilçi alimlər sinonimlərin leksikanın əsas bir hissəsini təşkil etdiyini qeyd edirlər. “Sinonimlərin səciyyəvi xüsusiyyəti ümumi bir mənanı müxtəlif incə çalarlıqlarla ifadə etməsindədir. Məhz həmin cəhət sinonim sözləri nitqin xarakterinə və şəraitə uyğun seçib işlətməyə imkan verir. Odur ki, sinonimlər nitqin ən zəruri, həm də ən mənalı leksik vahidləri hesab edilir” (Əfəndiyeva, 1980, s. 32). Aşıq dilinin ifadəliliyini təmin edən vasitələrdən biri kimi də sinonimlər maraqlı leksik faktlardır:

Muğan səhrasında, yay zamanında
Məni qərq elədin, a qara baxtım!
Hicran dəyrasında, qəm adasında
Az qalıbdı xəddim ağara, baxtım!
(Ağkilsəli, 2017, s. 386)

Sinonimlər sözlərin eyni mənanı müxtəlif yaxın çalarlarda ifadə edən məna qrupudur. Onlar “dilin ifadə vasitələri olmaqla bərabər, həm də lüğət tərkibini zənginləşdirən amillərdən biridir” (Dəmirçizadə, 1962, s. 121).

Huş dağılıb, ağıl başda ay azam,
Əlim tutmur yar vəsfini a yazam
(Ağkilsəli, 2017, s. 386).

Məlumdur ki, linqvistik baxımdan sinonimlər mənası eyni və ya çox yaxın mənalı sözlərdir. “Bir ümumi məna ifadə etmələrinə baxmayaraq, müəyyən bir sinonim cərgəni təşkil edən sözlər həm məna çalarları, həm də üslubi boyaları ilə bir-birindən fərqlənir. Çünki sinonimlərin ifadə etdiyi məfhum məna etibarilə nə qədər bir-birinə yaxın olsa da, hətta eyni kimi görünsə də, poli-

semantik bir mahiyyətə malikdir" (Cəfərov, 2007, s. 28). Aşıq poeziyasında sinonimlər yalnız mənanı təkrarlamır, eyni zamanda ritm, paralelizm və obrazlı ifadə yaratmaq məqsədi daşıyır:

Eşqin bu sinəmə çəkibdi dağı,
Mah camalın olub cahan çırağı.
Lalətək qırmızı, gülgəz yanağı,
Nə geysın yaraşır al əvəzində
(Bəhmən, 2017, s. 387–389).

Sinonimlərin üslubi-funksional əhəmiyyətində ritm və qafiyə xüsusilə diqqəti çəkir. Aşıq yaradıcılığı təsdiq edir ki, bu, dinləyicinin marağına səbəb olur və mətni daha asanlıqla yadda saxlamağa kömək edir.

Məndən dost-qohuma azca gileylə,
Nə qarğa, dalımca, nə hədyan söylə..
Halal qıl İmanı qohum-qardaşım,
Çeşmim ağlar, qaranlıqdı günəşim.
Gün xoş keçsə, ömür başım tacıdı,
Taleyim kəc gəldi, bəxt qıyqacıdı
(İman, 2017, s. 389–393).

Aşıq poeziyasında sinonimlər idrak vasitələri kimi çıxış edir, əxlaqi keyfiyyətləri gücləndirir və estetik cəlbedicilik yaradır. Sinonimlik əsas ideyaları vurğulamağa və gücləndirməyə, əxlaqi, didaktik və simvolik mənaları aydınlatmağa şərait yaradır. Belə ki, sinonimlər mənanı semantik təkrar yolu ilə qüvvətləndirir, aydınlığı təmin edir. Təsadüfi deyil ki, tədqiqatçılar aşıq poeziyasında sinonimləri və onların üslubi cəhətlərinin öyrənilməsini önəmli amil kimi tövsiyə edirlər (Cəfərova , 2017, s.22).

Sinonimlərin semantik zənginliyi artırması onların yalnız linqvistik vasitə deyil, eyni zamanda, aşıq poeziyasının cəlbedici və mədəni baxımdan mahiyyətini təmin edən əsas struktur və funksional element olduğunu təsdiq edir:

Əyri olan bilməz yolu, ərkanı,
Saxlayar könlündə şəri, böhtanı.
Mən qurbanam, belə həkim-loğmana,
Ömrümün sevdası dönübdür qana
(İman, 2017, s. 391).

Göründüyü kimi, sinonimlərin ahəngi estetik balans üçün imkan yaradır. N. Seyidəliyev haqlı olaraq qeyd edir ki, sinonimlər danışıq dilini zənginləşdirir, dili incələşdirir, onun təsir gücünü artırır, mənanı qüvvətləndirir, dildə emosiya yaradır, fikri çatdırmaq üçün ona aydınlıq gətirir və dəqiqləşdirir, təkrarın qarşısını alır (Seyidəliyev 2012, s. 3).

Bir yaxşı məclisə yaxşı varanda,
Yaxşı söhbət elər, yaxşı danışar
(İman, 2017, s. 392).

Aşıq poeziyasında sözlərin leksik məna qrupları (omonim, sinonim və antonimlər) məna zənginliyində mühüm rol oynayır. Poetik leksikamızda sinonimlərin özünə xas yeri vardır. Üsluba uyğun dil vahidlərinin işlənməsi poetik dilin məziyyətlərindən biridir. Bu mənada, sinonimlərdən istifadə əsərin bədii gücünə müsbət təsir göstərir, həmçinin dildə təkrarın qarşısını almaqla yanaşı sadalama intonasiyası ilə poetik dilə xüsusi estetik gözəllik qataraq onu leksik tərkibcə zənginləşdirir (Həsənova, 2024, s. 2–21).

Fələk sitəm etdi mən bəxti kəmə,
Əcəb kamə yetdim dövrani-dəmə.
Bimar davamlıdı möhnətə, qəmə,
O çəkəni inan, fil çəkə bilməz
(Əli, 2017, s. 396–398).

Aşıq poeziyasının dili üzərindəki araşdırmalar sinonimliyin folklor dilinin mərkəzi xüsusiyyəti olduğunu sübut edir. Sinonim strukturlar estetik və ritmik dəyəri çoxaldır. Sinonimlik vasitəsilə aşıq poeziyası həm linqvistik dəqiqlik, həm də poetik zəriflik əldə edir və dil, idrak və mədəniyyətin incə qarşılıqlı təsirini nümayiş etdirir. Poetik mətndə sinonimlər bəzən fonetik uyğunluğa və ya heca ölçüsünə görə seçilir. Şair eyni mənanı ifadə edən müxtəlif sözlər arasından ritmik baxımdan ən uyğun olanı seçməklə şeirin melodikliyini qoruyur. Bu, sinonimlərin həm də fonetik və struktur funksiyaya malik olduğunu göstərir:

Arayıb, axtarıb bir yar sevəsən,
Ağıl-mərifətdən ustakar ola.
Qohumla, qonşuyla bəd dolanmaya,
Mülayim kəlməli, dil şəkər ola
(Əlimərdanlı, 2017, s.401).

Aşıqlar mətnin ritmini pozmadan təkrarlama zamanı sinonimlərdən istifadə edirlər. Sinonimlərin rolu göstərir ki, Azərbaycan aşıq poeziyasının dili mədəni və mənəvi səviyyə daşıyan qaynaqdır. Sinonimlik aşıq dilinin əsas xüsusiyyətlərindən biridir. O, estetik cəlbediciliyi artırır, fikri çatdırmağı asanlaşdırır, mənanı gücləndirir və mədəni kimliyi əks etdirir. Aşıq dilində sinonim keyfiyyətlərinin öyrənilməsi dilçi və folklorşünaslara folklor ənənəsinin dinamikasını, leksik zənginliyi anlamağa imkan verir.

Çox mərifət əhli soyda var olur,
Ustadlara kəm baxanlar kor olur.

Yaxşının çəkdiyi namus, ar olur,
Yaltağın çəkdiyi yal davasıdı
(Məhəmməd, 2017, s. 403).

Nümunələr göstərir ki, aşıq poeziyasının dili ünsiyyət dilindən fərqli olaraq, yalnız informasiyanın ötürülməsinə deyil, eyni zamanda estetik təsirin yaradılmasına da xidmət edir. Bu baxımdan, dilin leksik ehtiyatında mövcud olan sinonimlər şeir dilinin ən mühüm ifadə vasitələrindən biri hesab olunur. Aşıqların fərdi üslubunun formalaşmasında da sinonimlərin müəyyən qədər təsiri vardır. Belə ki, bu maraqlı leksik vahidlər müəlliflərin dilində bədii təsvir imkanlarını genişləndirir.

Hər bir aşıq sinonimlərdən fərqli şəkildə istifadə edir. Bəzi aşıqlar klassik və neytral sinonimlərə üstünlük verdiyi halda, digərləri arxaik və ya obrazlı sinonimlərdən istifadə edərək öz fərdi üslubunu formalaşdırır. Bu xüsusiyyət onların dil yaddaşını, mədəni-estetik mövqeyini və poetik dünyagörüşünü müəyyənləşdirir. Beləliklə, sinonimlər aşıqların fərdi poetik dilinin formalaşmasında önəmli rola malikdir.

Şeir dilində sinonimlərin məqsədli və sistemli istifadəsi poetik düşüncənin dərinliyini və obrazlılığını təmin edən əsas amillərdəndir:

Nə danışıb, nə də dilləş,
Nə cəhd eylə, nə də əlləş.
Nə sirdi ki, yanır günəş,
Solan görmədim, görmədim
(Teymur, 2017, s. 407).

Sinonimlər əsas məna etibarilə bir-birinə yaxın olsa da, poetik dildə heç vaxt eynimənalı vahidlər kimi çıxış etmir, onların hər biri əlavə semantik, üslubi və emosional çalarlar daşıyır. Məhz bu çalarlar şeir dilində sinonimlərin seçimini və funksional yükünü müəyyənləşdirir.

Bu qəmli könlümün bahar, yazışan,
Çiçəyimsən, əlvan gülüm, bəri bax!
(Teymur, 2017, s. 406).

Şeir dilində semantik incəlikləri ifadə edən sinonimlər eyni anlayışı müxtəlif baxış bucaqlarından təqdim etməyə imkan yaradır. Aşıqlar bu sözlərdən birini seçməklə oxucuya ötürmək istədiyi hissin intensivliyini və xarakterini dəqiqləşdirir. Beləliklə, sinonimlər poetik mətndə, həm də mənanın çoxqatlılığını təmin edir. Şeir, əsasən, hiss və duyğular üzərində qurulduğundan, sinonimlər bu duyğuların daha təsirli şəkildə ifadə olunmasına xidmət edir. Elə sinonimlər var ki, yüksək emosional yükü ilə seçilir və oxucuda güclü psixoloji təsir yaradır. Məsələn, “sevmək” feilinin əvəzinə “vurulmaq”, “heyran olmaq” kimi sinonimlərin işlədilməsi

hissin intensivliyini artırır və poetik gərginlik yaradır. Bu baxımdan, sinonimlərin seçimi aşıqların estetik zövqünü və emosional dünyagörüşünü əks etdirən mühüm göstəricidir.

Nəticə

Aşıq poeziyasının dilində sinonimlər sadəcə leksik qarşılıqlar deyil, poetik düşüncənin və estetik ifadənin əsas dayaqlarındandır. Onlar mənanı zənginləşdirir, emosional-ekspressiv təsiri gücləndirir, ritm və ahəngi təmin edir və aşıqların fərdi üslubunu formalaşdırır. Sinonimlərin məqsədli və yerində istifadəsi poetik mətnin bədii dəyərini artıraraq oxucu ilə daha dərin emosional əlaqə yaradır. Bu baxımdan sinonimlər aşıq poeziyasının estetik və semantik potensialını müəyyənləşdirən mühüm dil vasitəsi kimi qiymətləndirilməlidir.

Ədəbiyyat

1. Aşıq Nəcəf Ağkilsəli. (2017). *Aşıq ədəbiyyatı antologiyası* (Aşıq poeziyası). "Xalq Bank".
2. Aşıq Teymur Qaraçöp. (2017). *Aşıq ədəbiyyatı antologiyası* (Aşıq poeziyası). "Xalq Bank".
3. Bimar Əli. (2017). *Aşıq ədəbiyyatı antologiyası* (Aşıq poeziyası). "Xalq Bank".
4. Cəfərova, K. (2017). *Azərbaycan klassik aşıq ədəbiyyatının leksik semantik xüsusiyyətləri.* Magistr elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya.
5. Cəfərov, S. (2007). *Müasir Azərbaycan dili* (Leksika). "Şərq-Qərb".
6. Dəmirçizadə, Ə. (1962). *Azərbaycan dilinin üslubiyyatı*.
7. Dərya Məhəmməd. (2017). *Aşıq ədəbiyyatı antologiyası* (Aşıq poeziyası). "Xalq Bank".
8. Əfəndiyeva, T. (1980). *Azərbaycan dilinin leksik üslubiyyatı.* "Elm".
9. Əlimərdanlı Aşıq Nəcəf. (2017). *Aşıq ədəbiyyatı antologiyası* (Aşıq poeziyası). "Xalq Bank".
10. Həsənova, S. (2014). Poetik leksika haqqında. *Azərbaycan dili və ədəbiyyat tədrisi,* 1(279).
11. Növrəs, İ. (2017*). Aşıq ədəbiyyatı antologiyası* (Aşıq poeziyası), " Xalq Bank".
12. Seyidəliyev, N. (2007). *Azərbaycan dilinin sinonimlər lüğəti.*
13. Şair Bəhmən (2017). *Aşıq ədəbiyyatı antologiyası* (Aşıq poeziyası). "Xalq Bank".